*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 3, s.25-28*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 3, p.25-28*
*Нахчыванский институт учителей. Научные труды, 2025, № 3, с.25-28*

**UOT: 37.018:37.091**
https://doi.org/10.30546/670832.2025.02.1013

# Yuxarı sinif şagirdlərinin özünütərbiyə fəaliyyətinin stimullaşdırılması

**Müəllif(lər):**

**Ruhəngiz Əliyeva**
Naxçıvan Müəllimlər İnstitutu
Pedaqogika üzrə fəlsəfə doktoru
**E-poçt:** ruhangiz.aliyeva@list.ru
https://orcid.org/ 0000-0002-9466-4822

**Açar sözlər:** özünütərbiyə, stimullaşdırmaq, məktəbli əxlaqı

**Annotasiya.** Tədqiqatın aktuallığı məktəblilərin özünütərbiyəsi, daxili motivasiyası və əxlaqi keyfiyyətlərinin formalaşdırılmasının müasir pedaqoji yanaşmalarda xüsusi əhəmiyyət kəsb etməsindən irəli gəlir. Məqsəd, şagirdlərin daxili motivasiyasını artırmaq, öz üzərində işləmə bacarıqlarını inkişaf etdirmək və rəğbətləndirmə, cəza, tənqid və stimullaşdırma metodlarının təsirini araşdırmaqdır.

Tədqiqatın materialı məktəblilərin davranış nümunələri, valideyn-uşaq qarşılıqlı təsiri və pedaqoji ədəbiyyat olmuş, metod kimi elmi-nəzəri təhlil, müqayisəli-təhlil və pedaqoji müşahidə istifadə edilmişdir.

Nəticələr göstərir ki, şagird yalnız öz tələbləri ilə şəxsi keyfiyyətləri arasındakı ziddiyyəti dərk etdikdə daxili motivasiya və öhdəlik hissi inkişaf edir. Rəğbətləndirmə müsbət davranışı gücləndirir, cəza pis vərdişlərin qarşısını alır, tənqid isə çatışmazlıqları aradan qaldırmaq üçün vasitə olur. Yarış və stimullaşdırma şagirdin sosial və əxlaqi keyfiyyətlərini möhkəmləndirir.

Nəticə etibarilə, şagirdlərin özünütərbiyəsi yalnız fərdi yanaşma və balanslı metodlarla mümkündür. Rəğbətləndirmə, cəza, tənqid və stimullaşdırmanın məqsədyönlü istifadəsi onların daxili motivasiyasını artırır, məsuliyyət və intizam hissini möhkəmləndirir, sosial və əxlaqi keyfiyyətlərinin inkişafına töhfə verir.

## Stimulating self-education activities of upper-grade pupils

**Author(s):**

**Ruhangiz Aliyeva**
Nakhchivan Teachers Institute
PhD on pedagogy
**E-mail:** ruhangiz.aliyeva@list.ru
https://orcid.org/ 0000-0002-9466-4822

**Key words:** self-education, motivation, school ethics, pupil, upper grades

**Abstract.** The actuality of the study is of great importance in self-education, inner motivation and the formation of moral qualities on pupils within modern pedagogical approaches. The aim is to enhance pupils' inner motivation, develop their self-regulation skills and examine the effects of praising, punishment, criticism and stimulation methods.

The study materials included pupils' behavioral patterns, parent-child interactions and pedagogical literature. As a method  scientific-theoretical analysis, comparative analysis and pedagogical observation were used.

The results show that, inner  motivation and sense of responsibility develop only when they recognize the contradiction between their personal qualities and their own standards. Prasing reinforce positive behavior, punishment prevents bad habits and criticism serves as a tool to liquidate deficiencies. Competitions and stimulation strengthen students' social and moral qualities.

İn conclusion, self-education of pupils is possible only through individualized approach and balanced methods. The purposeful application of prasing, punishment, criticism and stimulation increases intrinsic motivation, strengthens a sense of responsibility, discipline and contributes to the development of pupils' social and moral qualities.

## Стимулирование деятельности самовоспитания учащихся старших классов

**Автор(ы):**

**Рухангиз Алиева**
Нахчыванский институт учителей
Доктор философии по педагогике, доцент
**Э-почта:** ruhangiz.aliyeva@list.ru
https://orcid.org/ 0000-0002-9466-4822

**Ключевые слова:**
самовоспитание, стимулирование, нравственность школьника, старшие классы

**Аннотация.** Актуальность исследования обусловлена особой значимостью формирования самовоспитания, внутренней мотивации и нравственных качеств школьников в современных педагогических подходах. Целью исследования является повышение внутренней мотивации учащихся, развитие навыков работы над собой, а также анализ воздействия методов поощрения, наказания, критики и стимулирования.

Материалом исследования послужили поведенческие модели школьников, взаимодействие родителей и детей, а также педагогическая литература. В качестве методов использовались теоретический анализ, сравнительный анализ и педагогическое наблюдение.

Результаты показывают, что внутренняя мотивация и чувство ответственности формируются у учащихся тогда, когда они осознают противоречие между собственными требованиями и личными качествами. Поощрение усиливает позитивное поведение, наказание предотвращает формирование негативных привычек, а критика выступает средством устранения недостатков. Соревнование и стимулирование способствуют укреплению социальных и нравственных качеств учащихся.

В результате сделан вывод о том, что самовоспитание школьников возможно лишь при индивидуальном подходе и сбалансированном использовании методов поощрения, наказания, критики и стимулирования, что способствует развитию их внутренней мотивации, ответственности и дисциплины, а также социально-нравственных качеств.

**Giriş.** Məktəbli həvəsləndirilərkən öz üzərində işləməkdən razı qala bilər və müəyyən dərəcədə əldə olunmuş nəticə onu gələcək fəaliyyətdən çəkinməyə sövq edər. Müştəbehlik kimi mənfi keyfiyyətin yaranmaması üçün şagirdi öz üzərində işləməyi davam etdirməyə alışdırmaq lazımdır.

Rəğbətləndirmə təsir ölçüsü kimi şagirdin özünə qiymətindən asılı olaraq bir sıra xüsusiyyətlərə malikdir. Gücünə, imkanlarına arxayın olmayan uşaqları, adətən layiq olduqlarından artıq həvəsləndirirlər. Bunun da səbəbi odur ki, həmin şagirdlər tərbiyəçinin etimadını itirməmək, özlərini doğrultmaq üçün öz üzərində daha yaxşı çalışmağa başlayırlar. Lakin öz qüvvəsini, imkanlarını həddindən artıq şişirdən uşaqlar üçün isə rəğbətləndirmə məhdudlaşır.

Birinci halda şagirddə müştəbehlik, ikinci halda inamsızlıq kimi mənfi xüsusiyyətlərin əmələ gəlməsinə yol vermək olmaz. Əks təqdirdə formal rəğbətləndirmə məktəblilərin öz öhdəliklərinə müəllimlər, kollektiv, böyüklər qarşısında “borc” kimi münasibət yarada bilər.

Tədqiqat belə bir nəticəyə gəlməyimizə əsas verir ki, şagird yalnız öz tələbləri ilə şəxsi keyfiyyətləri arasındakı ziddiyyəti aydın anladıqdan sonra, onda şəxsiyyətin daxili ziddiyyətləri, insanın öz-özünə münasibətində ziddiyyətlərin formalaşması və öz-özündən narazılıq yaranır ki, bunlar da məktəblini aktiv fəaliyyətə istiqamətləndirir. Bu vaxt şagird uğursuzluğun səbəbini öz çatışmazlıqlarında görür, Belə vəziyyəti nəzərə alaraq, yaxşı olar ki, məktəblilərə məqsəd və planlarının həyata keçirməyə çalışan çatışmazlıqlar və bunların mənfi nəticələri başa salınsın. Öz qüsurlarının şəxsi mahiyyətini anlamaq, özündən narazılıq şagirddə səhvlərini düzəltmək istəyi yaradır.

Əgər məktəbli öz çatışmazlıqlarının və yaxud səhvlərini başa düşmürsə, onları yalnız tərbiyəçidən eşitməklə kifayətlənirsə və bunları mücərrəd şəkildə təsəvvürünə gətirirsə, bütün bu qüsurlarını özününkü kimi qəbul etmir. Təcrübə göstərir ki, heç də həmişə səhvlərin, çatışmazlıqların sadəcə izahı şagirddə daxili narazılıq yaratmır. Bu biliklər formal olaraq, söz şəklində qalaraq fəaliyyətin mahiyyətinə təsir etmir.

Bu zaman pedaqoji tələbkarlıqdan, ictimai rəydən və ixtilaflı, vəziyyətlərdən də müvəffəqiyyətlə istifadə etmək mümkündür.

Daxili ziddiyyətlərinin formalaşmasında, çatışmazlıqların başa düşülməsində və onların aradan qaldırılmasında cəzalandırma da mühüm əhəmiyyət daşıyır. Lakin cəza müsbət təsirlə yanaşı, mənfi, nəticəyə gətirib çıxara bilər. Bu, cəzanın düzgün verilmədiyi halda baş qaldırır və şagirdlə tərbiyəçi arasında olan yaxşı münasibət pozur, hətta məktəblini digər mənfi hərəkətlərə istiqamətləndirir. Odur ki, cəzalandırma metodunun tətbiqində bəzi cəhətlərin nəzərə alınması vacibdir: birincisi, cəzalandırma zamanı şəxsiyyətin qüsurları diqqətdən yayınmamalıdır; ikincisi pis hərəkətlərin motivlərinin nədən ibarət olduğu aydınlaşdırılmalıdır. Çünki ola bilər ki, şagird yaxşı bir hərəkət etmək istərkən, səhvə yol vermişdir.

Əgər hərəkət şəxsiyyətin çatışmazlığından, onun pis vərdişlə¬rindən, adətlərindən irəli gəlirsə, onda cəza səmərəli təsir vasitəsi ola bilər.

Prof. M.Ə.Muradxanov “Məktəblilərin iradə tərbiyəsinin prinsip və üsulları” [1, s.31] əsərində qeyd edir: “Uşaq əxlaqı hərəkət edərkən onu tərifləyirlər. O bundan həzz alır. Bu zaman tériflənməklə yaxşı hərəkət arasında assosiativ əlaqə yaranır. Uşaq həmin həzz hissini bir də yaşamaq üçün yenə əxlaqi hərəkət edir. Eləcə də pis hərəkət cəza ilə nəticələnir. Uşaq isə cəzadan kədərlənir, iztirab çəkir. Bu iztirab hissi ilə, pis hərəkət arasında assosiativ əlaqə yaranır. Uşaq bir daha həmin iztirab hissini yaşamamaq üçün o hərəkətdən daşınır. Yaxşı hərəkət üçün rəğbətləndirmə və pis hərəkət üçün cəzalandırmanın əxlaqa təsirinin mexanizmi belədir.”

Tənqid, nəinki tərbiyədə, həmçinin özünütərbiyədə də böyük əhəmiyyətə malikdir. Tənqid şagirdə öz çatışmazlıqlarını başa düşməkdə və onları aradan qaldırmaqda kömək edir. Şəxsiyyətin xarakterindən, şəraitdən və hərəkətdən asılı olaraq, tənqid yumşaq, yaxud da kəskin ola bilər. Hər iki halda o, nikbin səciyyə daşımalıdır. Valideyn uşağı tənqid etməklə yanaşı, həm də səhvlərin yeniyetmənin öz gücü ilə aradan götürülməsi imkanları haqqında da məsləhətlər verməlidir. Bu vaxt uşağı öz gücünə inandırmaq əsas şərtdir. Bunsuz özünütərbiyə mümkün deyildir. Bəs tənqidi necə etmək lazımdır ki, o, işin müsbət həllinə kömək göstərsin.

I. Sakit izahlı tənqid-valideynin mülayim

şəkildə uşağa çatışmazlıqları, səhvləri və onların gələcəkdə pis nəticələri barədə məlumat verməsidir.

II. Həyəcanlı tənqid validеynin uşağın pis, səhv hərəkətlərinə öz etirazını və narazılığını bildirməsidir.

III. Uşağa hər hansı bir çatışmazlığın aradan götürülməsi üçün məsləhətlərin verilməsi.

IV. Valideyn müəyyən tapşırıqların yerinə yetirilməsini uşaqdan xahiş edir.

Tənqid birbaşa eşitdirmə və eyham yolu ilə həyata keçirilə bilər.

Özünütərbiyə işinin proqramının və məqsədinin müəyyənləşdirməsində gənclərə kömək göstərmək xüsusi əhəmiyyət daşıyır. Məqsəd və proqram şəxsin xarakterinin elə xüsusiyyətlərinin inkişafına kömək etməlidir ki, onlar uşağa ailədə, kollektivdə, məktəbdə və dərs prosesində normal həyat şəraiti yaratmaq tələblərinə cavab versin. Proqrama mənfi keyfiyyətlərin, vərdişlərin və meyllərin aradan götürülməsi də daxil ola bilər. Proqram hazırlanarkən, böyük məktəbyaşlı uşağın imkanları nəzərə alınmalı, real və yerinə yetirilməsi mümkün olmalıdır. Hər hansı bir fəaliyyət kimi şagirdin özünütərbiyəsi də maddi və mənəvi stimullaşdırma (mənəvi stimul) tələb edir.

Bu, yuxarı sinif şagirdinin arzusunda olduğu bir əşyanın alınıb ona verilməsi kimi, həyata keçirilə bilər. Lakin mükafatlanmanın pul və yaxud həddindən artıq qiymətli əşya şəklində olması məsləhət görülmür.

Valideyn övladının mütaliəsini nəzarət altında saxlamalıdır. Bəzi ata-analar belə fikirləşirlər ki, əgər oxuyursa, deməк yaxşıdır, nə oxuduğu isə vacib deyil. Halbuki kitab şagirdin yaşına uyğun və yüksək səviyyədə olmalıdır. Mütaliə obyekti ideyaca zərərli olmamalıdır. Bədii əsərlər çatışmayan cəhətlərin aradan götürülməsi işinə kömək göstərməlidir. Məsələn, uşaq heyvanlara və quşlara pis münasibət bəsləyirsə, heyvanlar və quşlar aləmindən bəhs edən hekayələr məsləhət görmək vacibdir. Yetişən insanın daxili mənəvi aləmi də nəzərdən qaçmamalı, daim nəzarət altında olmalıdır. Valideyn bilməlidir ki, uşaq nə istəyir, nə arzulayır, nəyi məqbul sayır, özü-özünə, xarici görkəminə və qüvvəsinə necə münasibət bəsləyir, imkanlarını necə qiymətləndirir?

Uşaqların tərbiyəsi üçün onların yaş dövrünə uyğun olan səciyyəvi cəhətləri bilməklə yanaşı, onların fərdi, özünəməxsus xüsusiyyətlərindən də xəbərdar olmaq lazımdır. Yalnız bu halda valideyn öz çatışmazlıqlarını və səhvlərini aradan qaldırmaqda övladına kömək göstərər.

Ailədə bütün uşaqlarla tərbiyəvi işləri eyni metodlarla yerinə yetirmək mümkün deyil. Hər bir böyük məktəb yaşlı uşağa fərdi yanaşmaq, hansı xoşagəlməz hərəkətə yol verməsindən asılı olmayaraq, həmişə onun şəxsiyyətinə hörmətlə uzlaşmalıdır. Bundan əlavə, bu və ya digər uşağın vəziyyətini öyrənməklə ona tərbiyəvi təsir göstərmək gərəkdir. Çünki vəziyyətdən asılı olaraq, ailədəki psixoloji vəziyyət bəzən hər hansı tənqid, məsləhət və yaxud uşaq tərəfindən qəbul da ola bilər, inkar da. A.S.Makarenko ailədəki psixoloji iqlimin uşağa təsirinin hədsiz olduğunu qeyd edərək yazır: "Uşaq sizin danışığınızın tonundakı azacıq dəyişikliyi görür və hiss edir, ağlı-qaralı bütün fikirləriniz gözəgörünməz yollarla onlara çatır" [2, s.347].

Stimullaşdırmanın digər metodu yarışdır. Yarış insanın sosial həyat fəaliyyətində lazımi əxlaqi hisslərin ilkin rüşeyimlərini möhkəmləndirən başlıca yoldur. Möhkəm əxlaqi-iradi keyfiyyətlər üçün şagirdlərdə öz qüvvələrinə inam, şəxsi ləyaqət, mərdlik, mübarizlik, xeyirxahlıq və sadəlik hissi formalaşdırmaq yarışların başlıca vəzifəsidir. Yarış məktəblini özünü bir şəxs kimi idarə edə bilməsi, qarşıya qoyduğu məqsəd üçün maneə və çətinlikləri aradan qaldırmağa, bilik, bacarıq və vərdişlərin köməyi ilə öz qüvvəsini səfərbərliyə almaq yoludur.

**Material və metodlar.** Tədqiqatın aparılmasında əsas material kimi məktəblilərin davranışını, özünütərbiyə prosesini, valideyn-uşaq qarşılıqlı təsirini və pedaqoji ədəbiyyatı əhatə edən yerli və xarici elmi mənbələrdən istifadə edilmişdir. Xüsusilə şagirdlərin motivasiyası, rəğbətləndirmə və cəzalandırma üsulları, tənqid və stimullaşdırma metodlarının onların əxlaqi və psixoloji inkişafına təsiri tədqiqat materialının əsasını təşkil etmişdir. Tədqiqat aparılmasında M.Ə.Muradxanovun "Məktəblilərin iradə tərbiyəsinin prinsip və üsulları" və A.S.Makarenko, eləcə də digər müəlliflərin əsərləri nəzərdən keçirilmişdir.

Tədqiqatın metodoloji əsasını elmi-nəzəri təhlil, müqayisəli-təhlil və pedaqoji müşahidə metodları təşkil etmişdir. Elmi-nəzəri təhlil vasitəsilə şagirdlərin motivasiya və özünütərbiyə sistemində rəğbətləndirmə və cəzanın rolu araşdırılmış, müxtəlif müəlliflərin yanaşmaları sistemləşdirilmişdir. Müqayisəli-təhlil metodu əsasında fərqli pedaqoji üsullar və stimullaşdırma

formaları (rəğbətləndirmə, cəza, tənqid, yarış və mükafatlandırma) müqayisə edilərək onların effektivliyi və mənfi nəticələri müəyyən edilmişdir. Pedaqoji müşahidə metodu vasitəsilə isə məktəblilərin fərdi xüsusiyyətləri, davranış reaksiyaları və daxili motivasiya səviyyələri qiymətləndirilmişdir.

Tədqiqatda həmçinin praktik təcrübə və müşahidələrdən istifadə olunmuş, valideyn-uşaq və müəllim-şagird qarşılıqlı təsirinin şagirdin özünütərbiyəsinə və daxili motivasiyasına təsiri araşdırılmışdır. Şagirdlərin rəğbətləndirməyə və cəzaya reaksiyaları, tənqid və stimullaşdırma metodlarının tətbiqi nəticəsində əxlaqi keyfiyyətlərin formalaşması sistemli şəkildə təhlil edilmişdir.

Nəticədə tədqiqat materialları əsasında şagirdlərin özünütərbiyəsinin təşkili, onların daxili ziddiyyətlərini dərk etməsi və öz üzərində işləmək bacarıqlarının inkişaf etdirilməsi üzrə metodik tövsiyələr müəyyən edilmişdir.

**Nəticə və müzakirə.** Tədqiqat göstərir ki, məktəblilərin özünütərbiyəsi və daxili motivasiyasının formalaşdırılması prosesində rəğbətləndirmə, cəza, tənqid və stimullaşdırma metodlarının məqsədyönlü tətbiqi mühüm rol oynayır. Araşdırma nəticəsində müəyyən edilmişdir ki, şagird yalnız öz tələbləri ilə şəxsi keyfiyyətləri arasındakı ziddiyyəti dərk etdikdə daxili motivasiya və öhdəlik hissi inkişaf edir. Bu zaman şagird uğursuzluğun səbəbini öz çatışmazlıqlarında görərək, səhvlərini aradan qaldırmaq üçün aktiv fəaliyyət göstərir.

Rəğbətləndirmə, xüsusilə uşaqların uğurlu hərəkətlərinə verilən müsbət qiymət, onların daxili motivasiyasını artırır və əxlaqi keyfiyyətlərin formalaşmasına şərait yaradır. Lakin tədqiqat göstərir ki, rəğbətləndirmənin həddindən artıq və ya formal tətbiqi məktəblidə müştəbehlik və ya inamsızlıq kimi mənfi xüsusiyyətlərin yaranmasına səbəb ola bilər. Eyni zamanda cəza metodunun düzgün və ədalətli şəkildə tətbiqi şagirdin pis vərdişlərindən çəkinməsinə, öz hərəkətlərinə nəzarət etməsinə və əxlaqi məsuliyyət hissinin inkişafına yardım edir.

Tənqid şagirdin öz çatışmazlıqlarını başa düşməsi və onları aradan qaldırması üçün əsas vasitədir. Tədqiqat sübut edir ki, tənqid həm yumşaq, həm də sərt ola bilər, lakin hər iki halda şagirdin nikbinliyini qoruyaraq ona öz gücünə inanmaq imkanı verməlidir. Şagirdin özünütərbiyəsi, valideyn və müəllim tərəfindən verilən məsləhətlər, istiqamətləndirmə və praktik tapşırıqlar vasitəsilə daha effektiv şəkildə həyata keçirilir.

Araşdırmada həmçinin yarış və stimullaşdırma üsullarının şagirdin sosial və əxlaqi keyfiyyətlərinin inkişafına müsbət təsiri müəyyən edilmişdir. Yarışlar şagirdlərdə özünəinam, mərdlik, mübarizlik, xeyirxahlıq və əməkdaşlıq keyfiyyətlərini gücləndirir, qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün səylərini artırır.

**Yekun nəticə.** Nəticə etibarilə, şagirdlərin özünütərbiyəsi, daxili motivasiyası və əxlaqi keyfiyyətlərinin inkişaf etdirilməsi yalnız fərdi yanaşma və məqsədyönlü metodların tətbiqi ilə mümkündür. Rəğbətləndirmə, cəza, tənqid və stimullaşdırma vasitələrinin balanslı və düzgün istifadəsi məktəblinin daxili ziddiyyətlərini dərk etməsinə, çatışmazlıqlarını aradan qaldırmasına və öz üzərində işləməyə davam etməsinə şərait yaradır. Bu, həmçinin şagirdlərin şəxsi məsuliyyət hissinin, öhdəlik və intizam anlayışının möhkəmlənməsinə, eləcə də onların sosial davranış və münasibətlərinin inkişafına mühüm töhfə verir.

**Ədəbiyyat**


1. Dadaşova, T. Azərbaycan xalqının milli mənəvi irsi və tədris məsələləri / T.Dadaşova. – Bakı: Təhsil Nəşriyyatı, – 2017.
2. Hüseynova, F. Milli mənəvi dəyərlərin tədrisi və tərbiyədə rolu / F.Hüseynova. – Bakı: Elm, – 2019.
3. Muradxanov, M.Ə. Məktəblilərin iradi tərbiyəsinin prinsip və üsulları / M.Ə.Muradxanov. – Bakı, 1993. – s.31.
4. Qənizadə, R. Müasir pedaqoji texnologiyalar və milli mənəvi tərbiyə. – Bakı: Təhsil Akademiyası, – 2020.
5. Макаренко, А.С. Сочинения / А.С.Макаренко. Т.4. – Москва, – 1957. – с.347.


*Məqalə pedaqogika üzrə elmlər doktoru, professor Fərahim Sadiqov tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 24.04.2025, son daxilolma – 14.05.2025, qəbulolunma – 10.09.2025